№ 207 (3617) 12 noyabr 2016-cı il

# Milli neft strategiyasının yol açdığı böyük uğurlar

## Azərbaycanın tərəqqisinə verilən böyük töhfə

Ötən əsrin əvvəllərindən etibarən, dünya iqtisadiyyatının inkişafında, elmi texniki tərəqqisində enerji amili getdikcə daha vacib yer tutmağa başlayıb. Elə indinin özündə də inkişaf zəncirində enerji faktoru əsas həlledici halqa kimi qəbul olunur və bu mənada tamamilə təbiidir ki, karbohidrogen resursları uğrunda mübarizə yeni yüzillikdə daha kəskin xarakter alıb. Nəticə etibarı ilə neft və qazla zəngin ölkələrin heç də hamısı bu ehtiyatları üzərində suveren hüquqlarını reallaşdıra bilmir. Dünyanın mövcud xəritəsinə nəzər salmaq kifayətdir ki, enerji ehtiyatları ilə zəngin ölkələrin indi hansı müsibətlər içində olduğunu görəsən. İraq, Liviya, Nigeriya, Yəmən, və digərləri qeyd olunanların əyani təsdiqi sayıla bilər.

Bununla yanaşı, tərəqqisində malik olduğu enerji resurslarından uğurla istifadə edən, bu sahədə təkcə özünün yox, kifayət qədər böyük coğrafi məkanda yerləşən ölkələrin də təhlükəsizliyinə böyük töhfə verən ölkələr də mövcuddur ki, Azərbaycan onların sırasında əsas yerlərdən birini tutur. Özünün yeni müstəqillik tarixində uğurla formalaşan milli neft strategiyası nəticəsində ölkənin sosial-iqtisadi tərəqqi göstəriciləri daim dinamik xarakter alıb, Azərbaycan modern inkişaf yoluna çıxıb, müasir tələblərə cavab verən iqtisadiyyat qurub, infrastruktur formalaşdırıb, iqtisadi sahədə keçid dövrünü başa vurub, strateji valyuta ehtiyatlarının həcmi ildən-ilə artıb və bu qəbildən olan digər möhtəşəm nailiyyətlərə imza atıb. Təbii ki, qeyd edilənlər öz növbəsində ölkəni neft və qaz satışından əldə olunan milyardlarla dollar vəsaitin düzgün və effektiv şəkildə istifadəsinin, toplnanmasının real göstəricisi kimi çıxış edir. Bu mənada neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə olunması, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsinin təmin edilməsi baxımından ümummilli lider Heydər Əliyevin müvafiq fərmanı ilə yaradılan Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycanın malik olduğu ən böyük sərvətlərdən biri sayılan neftin xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubluğunu bildirən ümummilli lider tarixi qərar qəbul edərək 29 dekabr 1999-cu ildə «Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında» Fərman verdi. Ötən zaman isə bu Fərmanın nə qədər doğru bir qərar olduğunu, Azərbaycanın inkişafına vacib töhfələr verdiyini qabarıq şəkildə üzə çıxardı. Azərbaycanda belə bir qurumun yaradılması ölkə tarixində ilk dəfə reallaşsa da, onun formalaşdırılması zamanı xarici təcrübələrdən yerli xüsusiyyətlər nəzərə alınmaqla geniş istifadə olundu. Millət vəkili Aydın Mirzəzadə bildirir ki, ötən zaman Dövlət Neft Fondunun özülünün nə qədər sağlam əsaslarla və düzgün qurulduğunu göstərdi: «Ulu öndər Heydər Əliyevin milli neft strategiyasının tərkib hissəsi kimi ərsəyə gələn bu fond Azərbaycanın sosial-iqtisadi inkişafında dayaq nöqtələrindən birinə çevrilib. Fonda toplanan vəsaitin səmərəli idarə olunması, köçürmələr, aktivlərin uğurla idarəsi bu qurumun iqtisadi tərəqqidə xüsusi rol oynadığını aydın nümayiş etdirir və hələ uzun illər Dövlət Neft Fondunun Azərbaycanın yüksəlişində vacib yerinin olacağı da şəksizdir».

## Nümunəyə çevrilən səmərəli idarəçilik

Əsas fəlsəfəsi neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edən fond bu gün neft sazişlərinin həyata keçirilməsi ilə əlaqədar əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsinin ən effektiv mexanizminə çevrilib. Ulu öndərin neft strategiyasının ayrılmaz hissəsi olan Dövlət Neft Fondu yaradılarkən onun aktivlərinin həcmi cəmi 271 milyon ABŞ dollarına bərabər idi. Lakin sonradan həyata keçirilən düzgün siyasət nəticəsində Fondun aktivlərinin həcmi ildən-ilə artaraq, böyük məbləğlərə yüksəlib. Cari ilin ilk üç rübünün yekunlarına əsasən, ARDNF-in aktivləri 35 milyard 822,1 milyon ABŞ dollarına bərabər olub. Özü də bu vəsaitlər təkcə mənfəət neftinin və qazın satışından toplanmır. Fondun vəsaitinin səmərəli idarə olunması da hər il yüz milyonlarla gəlir əldə edilməsinə gətirib çıxarır. Fondun icraçı direktoru Şahmar Mövsümovun sözlərinə görə, təkcə cari ilin ilk üç rübündə fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 734,8 milyon manata bərabər olub. II ərzində isə bu göstərici əksər hallarda artıq bir milyard manatı keçir. Toplanan vəsait isə yuxarıda qeyd olunduğu kimi Azərbaycanın sosial-iqtisadi inkişafında bu gün kifayət qədər vacib rol oynayır.

Ümumiyyətlə, Fondun öz fəaliyyətindən əldə olunan vəsaitin toplanması, səmərəli idarə edilməsi vasitəsi ilə ölkə qarşısındakı bir sıra mühüm vəzifələrin həllinə yönəlib. Bunlardan birincisi, böyük həcmdə daxil olan xarici valyuta gəlirləri şəraitində ölkədə makroiqtisadi sabitliyin qorunması və maliyyə-vergi intizamının təmin edilməsi, eyni zamanda, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsidir. Digər mühüm məqam neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitinin toplanmasdır. Bunlara paralel olaraq ölkəmizin sosial-iqtisadi tərəqqisi ilə əlaqədar mühüm ümummilli layihələrin maliyyələşdirilməsi də məhz Fonda tərəfindən həyata keçirilir. Hazırda inşası uğurla həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinə, qardaş Türkiyədə «Star» neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə yönələn vəsaitləri buna konkret misal kimi göstərmək olar. Eləcə də hər il qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə Fond tərəfindən ayrılan vəsait bu qəbildən olan insanlar üçün onlarla müasir yaşayış qəsəbələrinin salınmasına, yeni çoxmərtəbəli evlərin tikilməsinə səbəb olub. Ümumiyyətlə, Fond tərəfindən Azərbaycan üçün vacib əhəmiyyət kəsb edən bir çox layihələr uğurla maliyyələşdirilir.

Məlum həqiqətədir ki, ehtiyatları yığıb onları ən etibarlı alətlərə yönəltmək ən asan işdir. Gəlirli, nisbətən riskli alətlər bazarını təhlil edib, investisiya strategiyası müəyyənləşdirib qısamüddətli investisiyalar qoymaq, investisiya fəaliyyətini indikindən daha çevik və intensiv etmək isə bir qədər çətin məsələdir. ARDNF bu missiyanın da öhdəsindən uğurla gəlir. Bunun nəticəsidir ki, Fondun aktivləri cari ilin əvvəlinə 33 milyard 574,1 milyon dollar olduğu halda cari ilin ötən üç rübü ərzində 6,7 faiz artaraq 35 milyard 822,1 milyon dollara çatıb. Halbuki, neft və qazla zəngin bir sıra ölkələrdə fərqli hal müşahidə olunub. Məsələn, dünyanın ən böyük neft eh-



tiyatlarına malik Səudiyyə Ərəbistanında valyuta ehtiyatları ötən dövrdə 1,5 faiz və ya 120 milyard dollardan çox azalıb. Bu ölkə məhz neftin qiymətlərinin aşağı düşməsi səbəbindən ümumi dəyəri 266 milyard dollar olan xeyli sayda müqavilənı ləğv edib. Halbuki, gün ərzində 11 milyon barrel neft istehsal edərək dünya bazarlarına çıxarır. Müqayisə üçün qeyd edək ki, Azərbaycanın gündəlik hasilatı cəmi 700 min barreldir. Amma Azərbaycan həm Neft Fonduna toplanan ehtyiatları artırır, həm də Fond mühüm əhəmiyyət kəsb edən lahyiələrin maliyyələşdirilməsini uğurla davam etdirir. Elə bu da yüksək səmərəlilik əmsalına malik idarəçilikdən xəbər verir.

## Şəffaflıq üzrə liderlər cərgəsində

Xatırladaq ki, ölkəmizdə neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya qəbul edilib. Prezident İlham Əliyevin 27 sentyabr 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilən həmin strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Strategiyanın təhlili də ölkəmizdə neft-qaz gəlirlərinin idarə olunmasının kifayət qədər dəqiq mexanizm və istiqamət üzrə həyata keçirilməkdə olduğunu göstərir. Bu da son nəticədə neft-qaz gəlirlərindən istifadədə effektivlik göstəricisini xeyli dərəcədə artırır və bu gəlirlərin bilavasitə ölkənin inkişafına yönəldilməsində vacib əhəmiyyət kəsb edir. Qlobal iqtisadiyyatda müşahidə olunan mənfi tendensiyalar, bir çox ölkələrdə yaşanan iflaslar fonunda aktivlərin etibarlı alətlərdə saxlanılması da olduqca mühümdür. Bu məsələdə də ARDNF uğurlu siyasət yürüdür. Fondun etibarlı alətlərə qoyuluşları nəzərdə tutan investisiya siyasəti yürütməsi artıq özünü tam doğruldub. Bu siyasət 2008-2009-cu illərdə başlanmış və fəsadları hələ də davam edən dünya iqtisadi böhranının Azərbaycanın strateji ehtiyatlarına mənfi təsirin olmamasının kökündə duran əsas faktorlardan biridir.

Daha bir önəmli məqam odur ki, qabaqcıl təcrübənin tətbiqi, təhsil və mübadilə üzrə əməkdaşlıq Neft Fondunun beynəlxalq münasibətlərinin inkişafında xüsusi yer tutur. Neft Fondu yaradılandan etibarən onun normativ-qanunvericilik bazasının təkmilləşdirilməsi, neft gəlirlərinin makroiqtisadi dinamikaya təsirinin qiymətləndirilməsi metodikasının tətbiqi üzrə beynəlxalq təcrübə daim öyrənilir və bu sahədə qabaqcıl yeni müasir iqtisadi mexanizmlərin tətbiqi mühüm önəm daşıyır. Dövlət Neft Fondunun fəaliyyəti, xüsusilə Azərbaycanda həyata keçirilən Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün nəticələri beynəlxalq miqyasda tanınmış qeyri-hökumət təşkilatlarının daim maraq dairəsində olduğu üçün bu təşkilatlarla əməkdaşlığın qurulması istiqamətində də iş görülüb, bir çox beynəlxalq miqyasda tanınmış qeyri-hökumət təşkilatları ilə mütəmadi görüşlər keçirilir, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləleri aparılır. Neft Fondu Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi prosesində fəal iştirak edir. Xatırladaq ki, Neft Fondu MHŞT-nin tətbiqinə görə «BMT-nin Dövlət Qulluğu Mükafatı» ilə təltif edilib. Bu günlərdə isə Fond Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutunun tərtib etdiyi Suveren Fondların Şəffaflıq və Hesabatlılığı qiymətləndirmə cədvəlində 92 xalla 60 suveren fond arasında 4-cü yerdə qərarlaşıb. Bu vəsaitlərin toplanması və idarəçilik baxımından ARDNF-in Norveç Pensiya Fondu, Yeni Zelandiya Pensiya Fondu, Amerika Birləşmiş Ştatlarının Vayominq Mineral Trast Fondu və Kanadanın Alberta Mirası Trast Fondu ilə artıq bir cərgədə olduğunu göstərir. Azərbaycanda mühüm infrastruktur və sosialyönümlü layihələrin maliyyələşdirilməsinin təmin edilməsində əvəzsiz rolu olan Fonda heç şübhəsiz ki, bundan sonra da sosial-iqtisadi inkişaf öz uğurlu ərməğanlarını verməkdə davam edəcək.

***Rüfət NADİROĞLU***

*Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə Azərbaycan Mətbuat Şurasının "Azərbaycanın müstəqilliyinin iqtisadi bünövrəsində milli neft strategiyasının rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondu milli neft strategiyasının tərkib hissəsi kimi" mövzusunda ke-*